# ALOVLAR KİMİ AÇILIR QOLLARIM

## ELSE LASKER-SCHÜLER

- ELZE LASKER-ŞÜLER -

1869-1945

ÇEVİRƏN

## ƏZİZ SƏLAMİ

2010

Else Lasker-Schüler 1869-cu ildə, Wuppertal şəhərində, zəngin və yəhudi bir ailədə dünyaya göz açdı. O altı bacı-qardaşın ən kiçiyi idi. Hələ dörd yaşında ikən yazıb oxumağa başladı. Sonrakı illərdə məktəb həyatına özünü uyğunlaşdıra bilmədiyinə görə on bir yaşında məktəbi buraxıb evdə dərs almağa başladı. On üç yaşında çox sevdiyi qardaşını itirdi və iyirmi bir yaşında isə anasının ölümü onda dərin izlər buraxdı. O bu itkini öz ömründə ”Cənnətdən qovulmaq” kimi dəyərləndirdi və onun acısını hər zaman duydu. Anası üçün həsrət və kədərlə dolu şeirlər yazdı.
Else Lasker-Schüler üç dəfə evləndi və hər üçü də uğursuzluqla qarşılandı.
Berlin şəhərində uzun illər yaşadı və bir çox şair, bəstəçi, rəssam və yazıçılarla dostluq və ilgidə oldu. Özü də rəssam kimi çalışdı və ara-sıra əsərlərindən sata bilsə də ömrü boyu, keçinə bilmək üçün dostlarının yardımından asılı qaldı. Oğlunun 27 yaşında ölümü onu dərindən sarsıtdı və ömrünün sonunadək onun acısıyla yaşadı.
1933-cü ildə şeirlərinə görə Almaniyanın o zaman ən önəmli Kleist ödülünü qazandı.
1934-cü ildə faşıstlərin iş başına gəlməsiylə vətəndaşlıq haqqı ləğv edildi. Açıq şəkildə aşağılandı və küçədə gedərkən döyüldü!
İsveçrəyə qaçmalı olsa da orada yaşamısına imkan verilmədiyinə görə Fələstinə getdi; çox korluqlar və aclıqlar çəkdi.
Yoxsul və kədərli bir durumda Yerusəlim şəhərində dünyaya göz yumdu.

“Bu, (Else Lasker-Schüler) Almaniyanin ən böyük qadın şairi idi.” Dedi görkəmli şair Benn və Friedrich Dürrenmatt onu alman dilini qurtaran bir şair kimi dəyərləndirdi.

Else Lasker-Schülerin yaradıcılığını heyranlıqla sevən bir oxucu ona bir məktub göndərib və ondan bir fotoşəkil almasını arzu etmişdi. O isə, ona on bir yaşında çəkdirdiyi bir fotoşəkili göndərmişdi!
Mənim yaşım yoxdur, mən hər zaman öncəki və sonrakı insanam deyərmiş o.
Onun şeirlərini oxuyarkən bunun doğru olduğuna inanırsan. Tale, onun başını daşlardan-daşlara çırpsa da başındakı röyalarını dağıda və ürəyinin odunu söndürə bilmədi.

Else Lasker-Schülerin şeirləri üzərinə ayrı-ayrı zamanlarda yazdığım iki kiçik yazını da aşağıda oxumaq mümkündür.

Min il sürsün bu röya istərəm
Və mən yanım dodaqlarında sənin.

1

Hər şairin ilk şeirləri, onun yaradıcılığında ilk addımlar kimi dəyərləndirilir. İlk addımlar, hər zaman yerimə sevinciylə dolu olsa da, qorxaq, titrək və sarsıntılı da ola bilir.
Şeirə gəldikdə, sözlər hələ yonulmamış, hamarlanıb sığallanmamış və o biri sözlərə uyğunlaşmamışdır.
(Burda söz əsl yaradıcılıqdan gedir, söz qoşmaqdan yox.)

Heyrət doğurucudur ki, Else Lasker-Schülerin ilk şeirlərində belə, bu "başlanğıc" özəllikləri heç duyulmur. İlk sözlər ustalıqla seçilmiş, söz düzümündə öz gərəkli yerini tutmuş və şairin ruhunu daşıyan söz axımında öz önəmli kimliyi vardır. Hələ ilk yaradıcılıq addımlarında, dildən belə bir bacarıqla yararlana bilmək mutluluğu çox az şairlərə nəsib ola bilir. Else Lasker-Schüler belə şairlərdən biridir.

Elsə Lasker-Schüler sevda şairidir. Sevdasız şeirləri çox azdır. Onun sevda duyğuları, erotik deyilən duyğunun ən qızğın və ən odlu yerlərinə enir. Ancaq onun erotiki, tanıdığımız, bildiyimiz və yalnız gövdə istəyi deyil. onun yanan dodaqları və alovlar kimi açılan qolları, həm də ruhunun dodaqları və qollarıdır. Onun şeirlərini oxuyarkən, böyük bir şairin yaratdığı bir od mənzərəsinin önündə dururuq. Qocaman bir od mənzərəsi! Bu gözəl cəhənnəmin

odları, alovlarını şairin bir-birində ərimiş gövdəsindən və ruhundan alır.
Odur ki, erotik odunun odunu olan gövdə bölmələri: (məmə, qarın, göbək və...) Else Lasker-Schülerin odunda gözə çarpmır. Bunlardan ad çəkməmək, bunların olmaması deyil, çılğın bir sevda odunda əriyib və onun sönməzliyində hər zaman yanmasıdır.
Bu özəllik, onun şeirlərinə uzaq çağların havasını bağışlayır. Nəfəsini Sapphonun odlu nəfəsinə qatır və "Mahnılar mahnısı" nın, "ölümdən güclüdür sevgi!" deyən Şulamitinə qovuşdurur.
Else Lasker-Schüler Avropalı bir insan olsa da, ruhu ilə doğuludur. Canında doğunun yaxıb yandıran günəşləri, dodaqlarında susamış çöllərin odlu yanğısı və ruhunda dərin gecələrin sevda mahnılarını pıçıldayan iri-iri ulduzlar vardır.

2

Else Lasker-Schülerin bir çox şeirləri düşünülüb yazılmış şeirlər deyli, onun ruhunda Birdənbirə, gözlənilmədən baş qaldıran bir burağandır. Bu burağana qapılıb gedən şairin vardığı yerlər kimsəyə və onun özünə belə tanış yerlər deyil. Hər nə ilk olaraq görünür. Sanki nəsnələr öz varlığının ilkindədir. Nə zamanın keçişi, nə insanın baxışı bu qərib və yepyeni biçimləri və boyaları hələ əskitməmişdir. Hər nə, hələ öz sirr və sehrini qoruyub saxlamaqdadır. Belə bir dünyanın vurğun yolçusu olan şair, hər addımda, tam yeni bir şeylə qarşılaşır və o şeyin açılmamış sirrinə və bənzərsiz gözəlliyinə dalır. Hər addım, yeni bir şeyi görmək üçün atılır. Odur ki, onun hər bir şeiri, tək bir şeir deyil, şeirlərdir. Onun bir çox şeirlərində, hər bir beyt (iki misra) bir şeirdir. Belə misralar, təsvir və lövhə olaraq deyil, hətta şeirdə çox önəmli yeri olan bənzətmə olaraq da deyil, iki misraya doldurulmuş çılpaq və özgür poeziyadır.

Else Lasker-Schülerin röyaları, uzaq mavilərdə güclə görünən adalar deyil; dolu ayın aydınlatdığı, damarlarında yabanı bir qan döyünən, gecə ovuna və sevişməyə çıxan gözəl və çılpaq canlıların balta girməmiş ormanlarıdır.

Onun heyranlıqla və həm də rahatsızlıqla seyr etdiyi poezia dünyasının mənzərələrinin boyaları kəskin, gur və toxdur. Bu Boyalar iri-iri, parça-parça bir-birinin yanına qoyulmuşdur. Hər boya özlüyündə bütün bir şeiri təmsil edə biləcək bir

detaldır. Bu boyalar şairin köpürüb daşan arzularnın, yaxıb yandıran tutqularının və gözlərinə yuxu getməyən həsrətlərinin boyalarıdır.

İÇİNDƏKİLƏR:

| | |
|---|---|
| DÜNYADAN QAÇMAQ | 11 |
| QARA BOHWANEH | 12 |
| UTANCIMIN QIZARTISI | 14 |
| TƏBİƏTİN İSTƏYİ | 15 |
| SONRA | 16 |
| AXŞAM | 17 |
| QIZDIRMA | 18 |
| SEVİNC! | 19 |
| EROS | 21 |
| SƏNİN FIRTINA MAHNIN | 22 |
| SƏRİNLİK | 23 |
| BAHAR MAHNISI | 24 |
| ALINYAZISI ULDUZU | 25 |
| TARTAROS ULDUZLARI | 26 |
| ÖLÜMSÜZLƏR | 27 |
| GƏNCLİK | 28 |
| MARGRET | 29 |
| DUMAN | 30 |
| RUTH | 31 |
| MƏNİM SƏSSİZ MAHNIM | 32 |
| ZEBAOTH | 35 |
| BİZ ÜÇÜMÜZ | 36 |
| DÜNYANIN SONU | 37 |
| İNDİ MÜRGÜLƏYİR RUHUM MƏNİM | 38 |
| VARIŞ | 39 |
| GÖZLƏRİNDƏ | 40 |
| UZAQLARDAN | 41 |

AXŞAM 42
ANAM 43
DİNCƏLMƏ 44
KETE PARSENOW ÜÇÜN 45
DOLU AY 46
SENNA HOY 47
SƏNSƏN GÖRƏN MƏNİ 48
BİR SEVDA MAHNISI 49
YAS MAHNISI 50
SASCHA 52
SENNA HOY 53
TRISTANLA TANIŞARKƏN 54
GRALPRINZEN ÜÇÜN 55
PRENS TRISTAN ÜÇÜN 56
ALTUN RITTER ÜÇÜN 57
RITTER ÜÇÜN 58
TRISTAN ÜÇÜN 59
AH, O ƏLLƏRİN 60
TANRISIZ GISELHEER ÜÇÜN 61
GƏNC GISELHEER ÜÇÜN 63
KRAL GISELHEER ÜÇÜN 64
BİR ÇOX ALMAZ 65
GİZLƏNİRƏM AĞACLAR ARDINDA 66
DİNLƏ 68
PALMA MAHNISI 69
MƏNİMSƏMƏK 70
YALNIZ SƏNİ 71
BARBAR ÜÇÜN 72
HANS ADALBERT ÜÇÜN 73

| | |
|---|---|
| AMMA FIRTINADIR QAŞLARIN | 74 |
| KƏDƏRLƏNDİRƏRSƏN MƏNİ-DİNLƏ | 75 |
| DANIEL  JESUS PAUL ÜÇÜN | 76 |
| LAURENCIS | 77 |
| ABDUL ANTINOUS | 78 |
| PABLO | 79 |
| RÖYANA DALIRAM SƏSSİZCƏ | 81 |
| AYRILMA | 82 |
| MÖNCH | 83 |
| MÖNCH ÜÇÜN | 84 |
| BİR MAHNI | 85 |
| GİZLİCƏ GECƏDƏ | 86 |
| ANA | 87 |
| ANA | 88 |
| MƏNİM MAHNIM | 89 |
| ÖMRÜMÜN MAHNISI | 90 |
| HABİL | 91 |
| AXŞAM MAHNISI | 92 |
| MİLAD BAYRAMI | 93 |
| MƏNİM ANAM | 94 |
| UŞAĞIM ÜÇÜN | 95 |
| GƏLİR AXŞAM | 97 |
| TORANLAŞIR HAVA | 98 |
| AXŞAM | 99 |
| VƏ | 100 |
| QUCAĞIMDA | 101 |
| SEVİMLİM ÜÇÜN | 102 |

## DÜNYADAN QAÇMAQ

Sonsuzluğa
Özümə dönmək istərəm,
Artıq çiçəklənir
Ruhumun zamansız sonbaharı,
Bəlkə gecdir, dönmək bir daha!
Ah, ölürəm aranızda!
Boğursunuz özünüzlə
Məni çünki.
Tellər çəkmək istərəm yan-yörəmə
Dolaşsın ucları bir-birinə!
Çaşdırsın sizi
Və azdırsın,
Ki qaça bilim mən özümə!

## QARA BOHWANEH

( Gecə tanrıçası )
( Qaraçı mahnısı )

Yanır dodaqlarım
Alovlar kimi açılır qollarım!
Mənimlə Granadaya gələsən gərək
Mənim odlarımı doğan günəşə...
Köpürdükcə qanım
Kükrədikcə gücüm
Ağrıyır damarlarım.

Narlar yanaraq parıldayır
Dodaqları kimi gecənin!
Gecənin sevdası kimi qırmızı!
Və yanğısı kimi yanaqlarımın.

Dərimin tutqun işığında işıldayır
Sapa düzülmüş balıqqulağı rəng-rəng,
Və odlu dalğalar kimi işıqladır hörüklərimi
Günəş rəngli kəhrəba inciləri.
Ruhum titrəyir,
Titrəyərək bir torpaq kimi açılır
Susamış havaya, çağlayan axına!

Qızmar küləklər inləyir,
Nəfəsi kimi həsrətin,
Dağıdandır ağrısı kimi həsrətin...
Və Granada qayalarının üzərində gurlayır

“Gəl!” deyən səsi
Qara Bohwanehnin!

## UTANCIMIN QIZARTISI

Artıq göndərmə mənə gecələri,
Gözəl bağçalarının goxusunu,
O yaxıcı məlhəmini!
Qanayır yanaqlarımda utancım
Və titrəyir çevrəmdə yay havası.

Sərinlik olsun əsdirdiyin
Yanaqlarıma gecələri,
Qoxusuz
Və diləksiz otlardan.
Olmasın artıq həsrətli qızılgüllərinin qoxusu,
Ağrılar gətirir utancıma.

## TƏBİƏTİN İSTƏYİ

Yaxıcı yaşam gücləridir üzərimdə,
Duyğular ki, yüyən vura bilmirəm,
Canlanan, varlanan düşüncələr
Qurdlar kimi alırlar üstümü birəm-birəm!

Azıram qoxulu, günəşli günlərdə...
Titrədir gecəni çığırtı səsim.
Qırır zəncirini, qurtarır özünü
İşgəncə iniltisidir, inləyən həvəsim.

Gərir titrək və işıldayan qanadlarını
Uçur gənc qoynuna günəşli dərənin,
Buraxır özünü may ayının küləklərinə
Bağlanır büsbütün, istəyinə təbiətin.

# SONRA

...Sonra ulduzların durğun işığında
Gəldi sənin röyanla gecə.
Gündüz keçdi yanımdan gülümsəyərək,
Və yabanı qızılgüllər nəfəs aldı bəlirsizcə.

İndi röya dolu bir mayın həsrətindəyəm,
Və sənin, sevgini bildirməyinin.
Min il sürsün bu röya istərəm
Və mən yanım dodaqlarında sənin.

## AXŞAM

Qoparaq çıxdı içimdən mənim gülüşüm,
Gülüşüm, gözləri uşaq gözləridir,
Mənim azyaşlı, hoppanan gülüşüm
Oxuyur qaranlıq gecənin gündüzünü
Qapının önündə sənin.

Qoparaq çıxdı içimdən  və vardı sənə
Sevincə çevirmək istədi kədərlərini
İndi qocalar kimi gülümsəyir
Və düşünür həsrətlə gəncliyini.
Mənim baharlı, coşğun və şən gülüşüm
Diləyir ölümü indi.

## QIZDIRMA

Quru güney küləyidir üzümdə
Bağçalarından əsən qoxu.
Ah, mənim bu qızmar ağır gecəm!
İçirəm yanğımın yaxıcı
Və odlu havasını.
Kəskin və rahatsız bir işıq alovlanır
Yuxusuz gözlərimdə,
Çaşqınca titrəyən işıqlar kimidir gecədə.
Bilirəm ki məni
          qarğımışlar
Düşürəm göylərdən əllərinə.

SEVİNC!

Odlu yarpaqlar arasında yanan yabanı üzüm kimi
Qaynayır arzum qanımın həsrətində.
İstərdim ki bir qüvvə olaq -səninlə mən-,
Bir qan olaq,
Doğrulmuş bir arzu və
Bir tutqu olaq,
Və odlu sevda mahnısı dünyaların!

Günəşin yaxdığı yay günü
                        yağış özləyərkən,
Yağmur buludları havada partlayarkən!
İstərdim ki qoşa budaq olaq -səninlə mən-,
Və bizim olsun bütün həyat,
Ölümü belə çıxaraq məzarından
Və şən çığırtılarla dolduraq susqunluğunu!

İstərdim, dolaydı bizim dərin uçurum,
Və bir-birinin üstünə qalanan qayalar tək
Əlçatmaz bir dağ başına qovuşaydı!
Tutaydıq göylərin ürəyindən
Qalaydıq qoynunda bütün küləklərin
Və işıqladaydıq zamanları!

Bayram olaydı o gün bizə,
Bir-birimizdə çağlayaydıq,
Bir-birimizə töküləydik,
Yalçın və uca qayalardan
Öz mahnılarını dinləyən dalğalara
Tökülən bulaqlar  tək,
Ki  birdən çarpılar, birləşər və axarlar,

Bir-birindən ayrılmadan
Bir su axınında kükrəyərək!

EROS

Sonsuzca sevdim onu ah!
Çökdüm önünə dizlərinin
Açdım Erosa
Həsrətimin şikayətini.
Çılğınca sevdim onu ah!
Qara qan rəngli bir yay gecəsi
Oldu başım çökərkən qoynuna.
Və sardı qollarım onu
                    yanarq,
Görməmişdim qanımın
Elə odlanmasını,
Buraxdım əllərinə həyatımı,
Çıxardı məni o dərin kədərlərdən,
Bütün günəşlər od mahnıları oxudu,
Və çılğın zanbaqlara bənzədi əl-ayağım.

## SƏNİN FIRTINA MAHNIN

Burax gurlasın mahnın,
                        fırtınalı!
Keçərək mənim sevdamdan,
Mənim yanan kosmosumdan.
Sevən və dağıdan,
Sürəkli gurlayan,
Göygurultusuna oxşayan!

Burax gurlasın mahnın,
                        fırtınalı!
Söndür mənim odlu coşğunluğumu,
Boğuluram çünkü bu alovun tüstü-dumanından,
Sərt gözləriylə Zeusun
Ey acıqlı fırtına!
Boşalt üstümə buludları.
Quraq bir yay torpağı kimi
                          doymadan
Soracam axınları.
Burax gurlasın mahnın,
                       fırtınalı!

# SƏRİNLİK

Açıq rəngli qızılgüllərin
Ağ közlərində
Qanamaq və ölmək istərdim.

Sərinlətsinlər deyə həsrətimi
Gözləyirlər göllərin ruhsuz və donuq
Zanbaqları məni.

## BAHAR MAHNISI

Qış örtümün altında mənim
Baharı duymuş olduğun!
Ölüm səssizliyimdə mənim
Baharı tanımış olduğun!
Deyilmi kədərli, gəlməsi qışın
Hələ yay girmədən
Hələ bahar sevinci tükənmədən!

Bağışla mənə o altun gününü
O çiçəklənən qırmızısından qanının!
Acından titrəyir ruhum,
Bezmış artıq bu qırovdan.
Ah, qoy axsın  baharlı qanın
İçində donmuşluğumun,
Ölülər kimi olmuşluğumun.
Gör nə qədər
Gözlədim səni mən!

## ALINYAZISI ULDUZU

Gündüzün həsrətində qalan gecələrdir
Həyatımın önündə gözləyən gözlərin,
Anlaşılmaz və ağır
Bir röya içindədir.

Quyruqları həsrətdən
Dəmir rəngli və qərib
Ulduzlar süzür yeri,
Yanan qollarıyla, sevgi deyə
Sarırlar havada sərinlikləri.

O ulduzlara qovuşur alınyazısı.

## TARTAROS ULDUZLARI

Nədən arayırsan gecələrimizdə məni
Nifrət buludlarında pis ulduzların!
Burax çarpışım ruhlarla təkbaşına.

Gəlirlər unudulmuş, yabanı və uzaq bir diyardan
Şütüyürlər qanadlarıyla çalağanların.
Buzlu yellər kimi bahar mahnısında.

Və sən unudursan bağçalarını günəşin
Ölüm hüznünü süzürsən donaraq.
Ah, nə vurnuxursan ardında ağrılarımın!

Tartaros: (yunanca)
Tanrılar tanrısı Zeusun, düşmənlərini atdığı
Yeraltı dünyanın uçurumu.

## ÖLÜMSÜZLƏR

Yox sonu sənə bəslədiyim bu sevdanın!
Bütün sevdaların, bütün nifrətlərin üzərində!
Dəyərli bir daş kimi saxlamaq istərəm
Səni ruhumun ən işıqlı bir yerində.
Burax qalsın röyaların qucağımda
Altun bir hasar çəkərəm çevrəsinə,
Şirin yunan şərabları
Və qızılgüllərin yağını süzərəm üstünə.

Bir quş kimi, qanadlandım ardınca,
Ötərək fırtınalı çöllərdən, ruzgarlı dənizlərdən,
Günəşli gündüzlərdə,
Ulduzlu gecələrdə
Aradım səni mən.
Qoy heç azalmasın gücü istəyinin,
Və uçaq bütün sonbaharların üzərində.
Hər zaman yaşıl, qucaqlayaq biz ölümü
Və həyat verək ona həm də.

## GƏNCLİK

Torpağın dərin bir yerində keçən gecə
Döyəcləyirdin bir tabutu döyəclədikcə.
Nə istəyirsən məndən ey ölüm!
Səhər şəfəqləriylə oynayır mənim könlüm.
Günəşin saçılan odlarında rəqs edir,
Onunla yay sevinci və bütün çiçəklərdir.

Rədd ol buradan, ey doyumsuz olan!
Köksümdə bunca sevinc
Mənə ölülər dünyası nə gərəkdir!

## MARGRET

Solmuş kədərdən səhərin bənizi,
Nə çox gənc çiçəklər oldu ölən,
Apardı ölüm səni,
Könlümdə həsrətindir inləyən.

Bu inləyiş keçir  mavi çiçəklənən
Dənizlərin başsız suları üzərindən,
Dinləyirəm hönkürən ananı
Qanımın içində mən.

O baharlı, o dərin gözlərinlə
Yuxumdasan hər zaman,
Yabanı tumurcuqlar kimi baxardılar
Tanrıyaşlı ağaclardan.

## DUMAN

Oturmuşuq kədərli və əl-ələ,
İşıldayır günəşin sarı qızılgülü,
Tanrının bu parlaq gəlini
Gizləmiş yer üzündən özünü.

Nə gözəl qızıl idi baxışları!
Sorğulu gözləri kimi uşaqların
Açılır gözlərimiz geniş-geniş,
Örtmüş saçlarımızı həsrət bəmbəyaz.

Yüksəlir rahatsız bir qaranlıq
Çılpaq fıstıq ağaclarının arasından,
Gecələrdir dirilmiş bir  daha,
Ağlayan gündüzlərini arayan.

Yumulur əllərimiz qızılgüllər kimi,
Çələngi içində boz sonsuzluğun
Göylərin gənc çağları tək
Gəl sevək bir-birimizi.

Qanadları yarpaqlardan
Dərin bir yay uçacaq yerə doğru,
Çağlayıb axacaq bir şirinlik
 Keçəcək kədərli həyatın hər yanından.

Nə oynamaq olsun gərək?
Qucaqlaşmaq,
Sonra yerdə
Yuvarlanmaq, yuvarlanmaq olsun gərək.

## RUTH

Arayarsan məni çəpərlər önündə.
Dinlərəm ah çəkən addımlarını
Və ağır, qaranlıq damlalardır gözlərim.

Çiçəklənər o sevimli baxışların
Və doldurar ruhumu,
Gözlərim yuxuda dolaşarkən.

Bir mələk durar
Bulağı başında yurdumun,
Oxuyar sevdamın mahnısını,
Oxuyar Ruthun mahnısı.

## MƏNİM SƏSSİZ MAHNIM

Kədərli bir zamandır ürəyim,
Tıqqıldayar, səsi yox.

Altun qanadları vardı anamın,
Tapa bilmədi öz dünyasını.

Arayır anam məni, dinləyin,
İşıqlıdır barmaqları
Və dolaşan röyalardır ayaqları.

Mavi bir ruzgarla gözəl bir havadır
Mürgülərimi isindirən,

Anamın tacı başında olan
Günlərin gecəsində.

Gecə kimsəsiz gəldimi,
İçərəm şərabımı ayın qədəhindən.

Yayın mavisini daşıyan mahnılarım
Qaralıb döndülər özümə.

Ələ saldınız dodaqlarımı
Və danırşınız onunla.

Mənsə tutdum əlinizdən,
Çünkü sevgim bir uşaqdı
Oynamaq istəyən.

Seçdim içinizdən birini
Və sonra ikincisini
Və öpdüm onu,

Amma tikilmişdi baxışlarım
Arxada duran ruhuma.

Yoxsul etdi məni
Dilənçi yaxşılıqlarınız.

Xəstə olmazdım heç zaman
Xəstəyəm indi sizdən.

Alçaqlıqdır könül qırmaq,
Qırmaq deməkdir həyatın ayaqlarını.

Oğurlayırsınız məzarlıq yolunun işıqlarını,
Və danırsınız ölümü.

Amma ən yüksək yeridir
Gözlərim zamanın,

Öpər onun işıqları
Tanrının ətəyindən.

Sizə sözlərim var hələ söyləməyə
Aramıza qaranlıq çökmədən.

Onların içində ən gəncimisən,
Mənim ən əskimi bilməlisən,

Bütün dünyalar oynayacaq

Və gecə söyləyəcək bu şikayəti
Gündüzə.

Mən hiroqlifəm.*
İçində yaradılışın.

Sizin kimi olmaq istədim,
İnsana həsrət duyduğumdan.

Çıxardım gözlərimdən sonsuz baxışlarımı,
Və dodaqlarımdan yenilməz işığı.

Tanıyırmısan məndən qorxulu bir dustağı,
Məndən yaman bir sehrbazı?

Və qollarım, qalxarkən,
Düşür yanıma...

Hiroqlif:
Əski Misir yazıları. (çox çətin oxuna bilən)

## ZEBAOTH

Sevirəm  səni ey, Zebaoth!*
Dönərkən bağlarından, əynində
Qızılgüldən geyiminlə.
Ah, ey dəliqlanlı tanrı
Ey şair!
İçərəm yalnızlığımda gözəl qoxularını.

Sənə həsrətdi qanımın ilkin çiçəyi,
Gəl, nə olar,
Gözəl tanrı!
Dost tanrı!
Əriyər həsrətimdən
Qapının altunları.

Zebaoth:
Yəhudi dininə görə tanrılar tanrısı.

## BİZ ÜÇÜMÜZ

Səhər röyasından aslanardı ruhumuz
Sanki gilaslardı ürək kimi,
Və gülən qandı ağaclarda.

Uşaqdı hələ ruhumuz,
Həyatla oynadığı vaxtlarda,
Söylədikləri əfsanələr kimiydilər.

Ağ açalya çiçəklərindən oxuyardı
Batı küləyində,
Başımız üzərində yay göyləri.

Bir inamdı, bir də öpüş;
Üç göyərçindi ruhumuz,
Birləşmiş.

## DÜNYANIN SONU

Bir ağlamaq sarmışdır dünyanı,
Sanki ölmüşdür ulu tanrı,
Qurşunu andırır düşən kölgə,
Bir qəbir kimidir ağırlığı.

Gəl yayınaq gözlərdən,
Tabutlarda olan həyat
Vardır bütün ürəklərdə!

Qoy dərin olsun öpüşlərimiz,
Bir həsrət çırpınır dünyada,
Öldürəcək bizi də.

## İNDİ MÜRGÜLƏYİR RUHUM MƏNİM

Yıxdı ah, ağaclarını fırtına,
Bir ormandı ruhum mənim.

Eşitdinmi ağlamaq səsimi?
Çünki açılmış qorxaraq gözlərin.
Ulduzlar saçılar gecələri
Mənim tökülmüş qanıma.

İndi mürgüləyir ruhum mənim
Ayaq barmaqları ucunda ürkülü.

Bir ormandı ah, ruhum mənim,
Palmaların kölgəsiylə,
Sevgi aslanardı budaqlardan.
Bir təsəlli ver mürgüləyən ruhuma.

VARIŞ

Vardım könlümün diləyi son yerə.
Yox bundan uzaq işığın vardığı yer.
Qaldı dünya ardımda, uzaqlarda,
Uçuşan altun quşlardır ulduzlar.

Dartır yuxarı ayın qülləsi qaranlığı-
...Ah, şirin bir mahnıdır dinlədiyim, yavaşcadan...
Qürurlu qübbələrdir amma, qalxan çiyinlərim.

## GÖZLƏRİNDƏ

Mavi olur gözlərin-
Amma nədən titrəyir göylərinin
Qarşısında ürəyim.

Sarmış duman yanaqlarımı
Əyilir könlüm batmağa.

## UZAQLARDAN

Aydın bir gecədir sənin ürəyin,
-Məni düşünürsən-, görə bilirəm,
Dayanır ulduzlar yerindəcə.

Ay kimi altundandır sənin bədənin
Durmadan gedərək
İşıq saçır uzaqlardan.

# AXŞAM

Hohla könlümün şaxtasını
Bir civiltimi eşitdin qorxma,
Onun qara baharından.

Hər zaman düşündü məni möcüzəli soyuq xortdan
Əkdi ayaqlarım altında baldırğanları.*

İndi ulduzlarda qazır yazımı
Sütunu üstündə gövdəmin
Bir mələk ağlayaraq.

Baldırğan:
Zəhərli ot

## ANAM

İri bir mələkmidi,
O mənimlə gedən?

Yoxsa yatırmı anam
Tüstüdən bir göyün altında-
Heç çiçəklənməz mavi, ölümü üzərində.

İşıqlı olsaydı gözlərim
Versəydim ona işıqlarını!

Batmasaydı üzümdə gülüşlərim,
Asardım onun məzarından.

Amma bir ulduz var, bilirəm,
Orda gündüzdür hər zaman,
Keçirmək istərəm anamın torpağı üzərindən.

Artıq yalnız qalacam, yapyalnız,
Bir gün mənimlə gedən
O iri mələk kimi.

## DİNCƏLMƏ

Səssiz bir insanla keçmək istərəm
Yurdumun dağlarından,
Hıçqıraraq uçurumlar üzərindən
Altımda əngin göyləri.

Hər yanda əyilən sidr ağacları
Səpələr çiçəklərini.

Çökmüş amma yükü altında qanadlarımın
Çiyinlərim.
Əllər arayıram vəfalı, titrəməyən:
Dolaşmaq istərəm yurdumu.

## KETE PARSENOW ÜÇÜN

Sən bir möcüzəsən bu ölkədə,
Qızılgül yağıdır dərinin altında axan,

Altundandır saçların
İçər damcı-damcı röyaları;
Şairlər yorar onları.

Bənizin almış qızıldan əsmərliyini-
Oyanar üzündə sevənlərin
Gecəsi.

Bir mahnısan
Naxışlanmış altun bir səhifəyə,
Durarsan üstündə ayın...

Yırğalayar səni hər zaman
Bambuq budaqları.

# DOLU AY

Üzür səssizcə qanımda ay...
Mürgülü səslərdir gündüzün gözləri
Uzaqlaşıb yaxınlaşan...

Tapa bilmirəm dodaqlarını...
Hardasan uzaq şəhər
Bərəkətli qoxularla?

Qapanır hər zaman göz qapaqlarım
Dünyaya, yatır hər nə.

## SENNA HOY

Oyanar ürəyim rəng-rəng
Sən danışarkən.

Öyrənər quşlar mahnılarını
Dodaqlarında.

Səpələr səsin mavini
Yol üstünə;

Göyə çevrilər, danışdığın yer.

Mahnıdan biçilmiş sözlərin,
Üzər məni susqunluğun.

Mahnılar aslanmış hər yanından
Necədir görəsən röyaların?

# SƏNSƏN GÖRƏN MƏNİ

Kimsə keçmədi cığırımdan
Yerlə göy arasında.

İsindirər üzün amma dünyamı,
Sənsən qaynağı hər çiçəklənənin.

Baxdınmı mənə,
Gözəlləşər ürəyim.

Uzanmışam altında gülüşlərinin
Varlandırım deyə gecə ilə gündüzü,

Yaratmaq səni və buraxmaq zamana,
Bu bircə oyundur mənimki də.

## BİR SEVDA MAHNISI

Altun nəfəsdən yaratdı bizi
Ulu göylər.
Ah, nə sevirik bir-birimizi...

Quşa çevrilir tumurcuqlar budaqlarda,
Və qızılgüllər başlayır uçmağa.

Arayıram hər zaman dodaqlarını
Min öpüşün ardında.

Altundan bir gecə,
Gecədən ulduzlar...
Kimsə yox görən bizi.

Bir işıq gəlir yaşılla,
Dalırıq mürgüyə;
Yalnız çiyinlərimizdir kəpənəklər kimi oynaşan.

## YAS MAHNISI

Qara bir göyərçindir gecə
...Sən məni düşünürsən incəcə.

Bilirəm, durğundur ürəyin,
Durar ucunda mənim adım.

Gələr sənin acıların
Mənə doğru.

Toplaram səni arayan mutluluqları
Toxunmaram onlara.

Yaşadaram ömrünün çiçəklərini
Böyləcə.

Durmaq istərəm səninlə yan-yana;
Qoşa əqrəb kimi bir saatda.

Sussun ah, bütün öpüşlər işıqlı dodaqlarda
Sevgilər boyunca.

Açılmasın heç zaman səhər,
Qırdılar çünki gənciliyini.

Bir cənnət öldü
Sənin gicgahında.

Naxışlasın günəşi gündüzə
Kədərlilər.

Yaysın parıltını yanaqlarına
Yas saxlayanlar.

Qara kasacığında buludların
Durur qönçəsi ayın.

...Məni düşünürsən incəcə

SASCHA

Hələ gəncdir dodaqlarının kənarında çiçəklənən
Tutqun qırmızı inadın,

Amma sovruldu alnındakı dualarım
Qopan fırtınadan.

Öpməməliymişik bir-birimizi
Yaşayarkən...

İndi məzarımın üstündə duran
O mələksən.

Tərpədər torpağın nəfəsi
Bir canlı kimi gövdəmi.

Aydınlıqdır ürəyim
Çəpərdəki qızılqüllərin qanından.

Amma mən ölmüşəm artıq, Sascha!
Və qısadır zamanı üzümdəki
Bu dərilmiş gülüşün.

## SENNA HOY

Gözəlləşmiş torpaq,
Sən təpə üstündə yatalı.

Hara getsəm barmaqlarım ucunda,
Ləkəsiz yollardır keçdiyim.

Ah, süzülər qızılgülləri qanının
İçinə ölümün.

Qorxmuram artıq mən
Ölümdən.

Sarmaşan çiçəklərlə mən indi
Çiçəklənirəm torpağında.

Səslərdi hər zaman məni dodaqların
Artıq dönə bilmir adım özümə.

Üstünə tökülən hər bel torpağın
Altında duyurdum mən də özümü.

Bundandır hər zaman gecədə qaldığım,
Və ulduzlar toranlıqda.

Anlaşılmazam dostların gözündə
Və çox qərib.

Amma sən durarsan qapısı yanında
O ən səssiz şəhərin və gözləyərsən
Məni ey böyük mələk!

## TRISTANLA TANIŞARKƏN

Ah,
Mənim mələyim,
Uçuruq boyuna
Gözəl buludlarda.

Bilmirəm varammı mən
Yoxsa ölmüşəm şirin-şirin
Sənin ürəyində.

Merac bayramıdır günlərimiz
Və bol-bol parıltılar.

Altun və qutsal şəkillərdir
Gözlərin.

Söylə, mən necəyəm?
Çiçəklər doğulmaq istəyir
Məndən hər yanda.

## GRALPRINZEN ÜÇÜN

Çiçəklənər gözlərimiz,
Baxarkən bir-birimizə.

Nə bir heyranlıq sarar bizi
Önündə möcüzəmizin-deyilmi?
Və hər nə olduqca gözəlləşər.

Çərçivəmiz ulduzlardan
Qaçırıq bu dünyadan.

Biz mələyik, inanıram.

## PRENS TRISTAN ÜÇÜN

Qonar mavi ruhuna
Ulduzlar gecələri.

Səninlə yavaşca davranmalı,
Ah ey mənim tapınağım
Diksindirər səni dualarım.

Oyanar incilərim
Qutsal rəqsimdən mənim.

Nə ulduz var, nə gündüzdür,
Tanımıram daha bu dünyanı,
Səni yalnız,  nə varsa göy üzüdür.

## ALTUN RITTER ÜÇÜN

Sənsən qızıldan olan
Nə varsa bu böyük dünyada .

Arayıram ulduzlarını
Uyumaq istəmirəm.

Uzanmaq ardında çəpərlərin,
Bir daha qalxmadan.

Öpmək əllərimizdəki
Şirin röyaları.

Alar qızılgüllərini
Ürəyim ağzından.

Gözlərim sevir səni,
Qaçırsan kəpənəklərini tutmağa.

Mən nə edim,
Sən olmasan.

Qara qardır damlayan
Göz qapaqlarımdan.

Oyna ruhumla mənim
Ölüncə mən.

## RITTER ÜÇÜN

Yoxdur daha günəş,
Amma işıqdır sənin üzün.

Və gecə möcüzəsiz,
Sənsən mürgüm mənim.

Axan ulduz kimidir səyirincə gözün-
Bir şey özləyirəm hər zaman.

Büsbütün altundandır gülüşlərin,
Göylərdə oynar ürəyim.

Ölərəm-
Gəlsə bir bulud.

## TRISTAN ÜÇÜN

Artıq uyuya bilmirəm,
Qızıl səpirsən üstümə hər zaman.

Bir zəngdir mənim qulağım,
Kimdir sənin güvəndiyin?

Aydınlıqdır sənin kimi,
Çiçəklənən çalılar göylərdə.*

Mələklər dərər gülüşlərini
Və bağışlar uşaqlara.

Günəş edib oynayarlar
Böyləcə...

Cənnət  anlamındadır.

## AH, O ƏLLƏRİN

Uşaqlarımdır onlar mənim.
Çuxurundadır onların
Bütün oyuncaqlarım.

Əsgər oyunu oynaram
Barmaqlarınla hər zaman,
Yıxılıncayadək, ufacıq atlılar.

Necə də sevirəm onları mən,
O qoşa, o uşaq əllərini!

## TANRISIZ GISELHEER ÜÇÜN

Ağlayıram-
Düşür röyalarım dünyaya.

Heç bir çoban girə bilməz
Mənim qaranlığıma.

Göstərməz yolu gözlərim
Ulduzlar kimi.

Dilənərəm hər zaman önündə ruhunun;
Bilirmisən bunu?

Kor olaydım keşkə-
Sənin gövdəndə sanaydım özümü.

Dolduraydım qanına
Bütün çiçəkləri.

Çox zənginəm,
Dərə bilməz kimsə məni,

Və daşıya bilməz evinə
Meyvəmi.

Biləsən deyə mənim adımı
Öyrətmək istəyirəm sənə incə-incə özümü.

Gör mənim rəngimi,
Qaradır və ulduzdur.

Sevmərəm soyuq günü,
Şüşədəndir gözləri.

Ölmüş hər nə
Bir sən, bir də mən varıq.

## GƏNC GISELHEER ÜÇÜN

Bir ulduz aslanır kirpiyimdən,
Hər yan aydınlıqdır
Necə yatım-

Səninlə oynamaq istəyirəm.
-Yoxdur vətənim-
Şah ilə şahzadə oynayırıq.

## KRAL GISELHEER ÜÇÜN

Yalnızam olduqca
Tapa biləydim keşkə
Sevimli bir ürəyin kölgəsini.

-Yoxsa biri
Bir ulduz bağışlayaydı mənə-

Mələklər tutar onu
Bir yerdə durmadan.

Qorxuram
Qara yerdən,
Necə gedim buradan?

Buludlarda qazsınlar
Məzarımı,
Günəşin göyərdiyi hər yerdə.

Sevirəm səni çox!
Sən dəmi məni?
Söylə, nə olar...

## BİR ÇOX ALMAZ

Sənin üzündə oldu daldığım
Ulduzlu göylərimin röyasına.

Bütün sevilən çeşidli adlarımı*
Sənə bağışladım,

Və qoydum əlimi
Altına addımının,

Sanki bununla da
Gedə biləcəkdim o dünyaya.

İndi ağlayır hər zaman
Göydə anan,

Çünki ürəyinin ətindən
Biçdim özümü,

Və sən bunca sevgini
Qovdun düşünmədən.

Qaranlıqdır-
Yalnız işığıdır ruhumun
Yanaraq titrəyən.

Əzizləmək üçün bir insanı bir neçə adla çağırmaq

## GİZLƏNİRƏM AĞACLAR ARDINDA

Yağır son damlasını gözlərim,

Görməsinlər deyə şəklini
Sıxca qapalı saxlayıram onları.

Doladım sənə qollarımı
Dolaşan bitkilər kimi.

Mən ki birləşdim səninlə
Nədən məni özündən qoparırsan?

Bağışladım sənə
Gövdəmin bütün çiçəklərini,

Qovaraq saldım bağçana
Bütün kəpənəklərimi.

Keçdim hər zaman narların arasından,
Baxdım içindən qanının

Dünya yanırdı hər yanda
Od içində sevgidən.

İndi çarparaq alnımı
Qaraldıram tapınağımın divarlarını.

Gərdin sən öz bağlanmamış kəndirini
Ey yalançı kəndirbaz!

Nə soyuqdur səlamlar büsbütün,
Çılpaqdır ürəyim,

Çırpınır dəhşətlə
Qırmızı arabam.*

Dənizdəyəm hər zaman
Yox daha quruya varmağım.

Qırmızı arabanın nə ola biləcəyini heç anlaya bilmədim!

## DİNLƏ

Oğurlayıram ağzının
Qızılgüllərini gecələri,
Bir qadın ondan içməsin deyə.

Səni qucaqlayan
Oğurlayar mənim
Əl-qoluna rəsm etdiyim sarsıntıdan.

Kənarıyam yolunun,
Toxunaraq sənə xəfifcə
Düşürəm dərəyə.

Uzaq bir görünüşmü kimi duyursan
Həyatımı
Hər yerdə?

## PALMA MAHNISI

Ah, sevgilim mənim,
Palma bağımdır üzün sənin,
İşıldayan Nil irmağıdır
Qayğısız gözlərin mən oynayarkən.

Üzündə sehirlənmiş
Qanımın bütün şəkilləri,
Məndə yansıyan bütün gecələr.

Açar mutluluğumun sirrini
Açılınca dodaqların.

Sən deyə çırpınmaq hər zaman-
Qurban verdi çoxdan ruhumu.

Odlu-odlu məni öpməlisən,
Dadlı oyunları könlümüzün;
Gəl gizlənək  göylərdə.

Ah, sevgilim mənim.

## MƏNİMSƏMƏK

Ölümdür hər zaman düşündüyüm,
Kimsə yox sevən məni.

Qutsal  bir şəkil olmaq istərdim
Hər nə məndə artıq sönmüş olan.

Bir röya içində axşam qızıllığı
Gözlərim yaralı ağlamaqdan.

Hara getməliyəm, bilmirəm
Sənə getdiyim kimi hər yerdə.

Sənsən mənim  vətənim gizlicə,
Artıq pıçıldamaq istəmirəm.

Ah nə çiçəklənib boylanardım
Sənin könlündə masmavi-

Cığırlar salardım çırpınan
Evinin çevrəsində.

## YALNIZ SƏNİ

Göylərin bulud-qayışında
Əyri ay.

Dincəlmək istərəm oraq-şəkilin
Altında, əlində sənin.

Fırtınadır hər zaman məni sürükləyən,
Bir dənizəm sahilsiz.

Amma sən arayandan bəri balıqqulaqlarımı
Parıl-parıldır ürəyim.

Qalar diblərimdə mənim
Sehirlənmiş.

Bəlklə bu dünyadır ürəyim,
Döyünən-

Və yalnız səni aramaqda-
Necə səsləyim səni mən?

## BARBAR ÜÇÜN

Uzanaram gecələri
Üzündə sənin.*

Badam və sidr ağacları əkərəm
Çöllərində gövdənin.

Arayaram usanmadan köksündə
Altun sevincini Fironun.

Amma ağırdır dodaqların,
Açılmaz mənim möcüzəmdən.

Qaldır, nə olar, ruhumdan
Qarlı göylərini-

Doğrayar damarlarımı
Almaz röyaların.

Mən Yusifəm, yaraşıqlı bir qayış bağlaram
Rəng-rəng dərimə.

Mutlu qılar səni, qorxaraq
Xışıldayan balıqqulaqlarım.

Amma buraxmaz ki artıq, ah
Dənizi içinə ürəyin!

üz burada çöhrə anlamındadır

## HANS ADALBERT ÜÇÜN

Çiçəklənər ürəyimdə
Danışarkən sözlərin.

Uçar aydın saçlarının üzərində
Qaranlıq düşüncələrim.

Güney torpağından, sevdadan,
Ulduzdan və yırğalanmadan yarandın sən.

Mənsə çoxdan ölmüşəm,
Səndə ah, ey mənim göylərim...

## AMMA FIRTINADIR QAŞLARIN

Uçaram rahatsız, göylərdə gecələri
Qaralmaram uyğulardan.

Vızıldayar röyalar könlümün çevrəsində
Şirin şeylər istəyərək.

Diş-dişdir bütün kənarlarım,
Sən içərsən yalnız yaralanmadan altunu.

Mən bir ulduzam
Üzünün mavi buludunda.

Oynayarkən parıltım gözlərində
Bir dünya olarıq birlikdə.

Və vurğunca dalarıq röyaya-
Amma bir fırtınadır qaşların.

## KƏDƏRLƏNDİRƏRSƏN MƏNİ-DİNLƏ

Çox yorğunam.
Daşıyıram bütün gecələri arxamda
Və sənin də
O çox ağırröyalı gecəni.

Sevirmisən məni?
Üfürdüm alnından o pis buludları
Və mavi etdim onu.

Nə edirsən mənimlə bu ölüm zamanımda?

## DANIEL  JESUS PAUL ÜÇÜN

Gecədir-
Gəl bölüşək həsrətimizi,
Və baxaq altun şəkilə.

Bir ölü oturar önündə könlümün
Açar əlini sədəqə deyə.

Və mızıldayar mahnılarımı
Artıq ağarmış bir yay boyunca.

Məzar yolunun o üzündə
Gəl sevək bir-birimizi.

Qorxusuz gənclərik və krallar ki,
Ancaq padşahlıq əsasıyla özlərinə toxunarlar!

Sorma artıq, dinləyirəm
Gözlərinin bal xışıltısını.

Yumşaq bir qızılgüldür gecə,
Gəl uzanaq kasacığında,

Daha da çökmək dərinlərə,
Yoruldum artıq bu ölümdən!

LAURENCIS

Hörülmüş çiçəklər kimi sənə mən
Suçsuz bir ad verdim.

Bundandır onu hər zaman
Sevərək səsləmək istədiyim.

Dumanın toz kimi
Bulandırdığı deyil ki,

Görərsən məni altunişıltılı
Könlümün içindən axşamkən.

Yenidən dirilməyi oynayırdı mənim ruhum,
Gözlər yatmış dərələr kimi görünərkən.

Və tanıyıram bütün mələkləri,
Səndən söylədim onlara.

Çiçəklənər ağzımın astra çiçəkləri
Dodaqlarının bitotu gülləriylə.*

Çəkərəm keşiyini sevdamızın
Çünki tumurcuqda qalmalı öpüşləri.

almanca : Rittersporn,
dilimizdə tapa bilmədiyimdən türkcədən götürdüm.

ABDUL ANTINOUS

Axar qaranlıq süslər kimi gövdənin incəliyi.
Ey mənim vəhşi, gecə yarısı günəşim,
Öp ürəyimi, mənim qırmızıçırpıntılı torpağımı.

Nə iri açılmış gözlərin-
Sənsən göyü görmüş olan
Bunca yaxın, bunca dərin.

Qurdum çiynində
Mən ölkəmi-
Sən hardasan?

Ayağın kimidir yol, çəkinən-
Ulduzlar olar qanım damla-damla...
Sevirəm səni mən, sevirəm sən mən.

## PABLO

Dinlərəm palma yarpaqlarını gecələri
Ayaqların altında xışıldayan, Pablo!

Ağlamağım gərəkdir zaman-zaman
Səndən aldığım mutluluqdan-

Göyərər bu zaman qayğısız
Göz qapaqlarında bir gülümsəyiş.

Açılar səndə qərib bir sevinc ya da:
Könlünün qara astra çiçəyi.

Hər zaman keçərək bağçaların yanından Pablo!
Baxarkən yolun sonunda o yerə,

-O mənim hər zaman sevda düşüncəmdir,
Sənə varmaq istəyən.

Və işıltılar saçılacaq göylərdən,
O mənim altun ahımdır arayan səni axşamkən.

Gələr çox keçmədən və sarar gözəl şəhərinin
üstünü
Acılarla dolu ay;

Üzümlər kimidir quşlar, rəng-rəng
Aslanır bağçada ağaclardan,

Mən də gözləyirəm, sehirlənmiş
Aslanır məndən də röyalar.

Ey bu yerlərin qürurlu balası, ey Pablo!
Alaram nəfəsimlə üzündən özgə bir sevdanın
səslərini;

Gicgahında əkmək istəyirəm amma mutluluq
ulduzumu,
Oğurlayaraq özümdən işıqlı çiçəyimi.

## RÖYANA DALIRAM SƏSSİZCƏ

Ağrılarla dolu rənglər gələr səhərləri,
Ruhun kimidir onlar sənin.

Ah, səni düşünməyim gərək,
Və hər yerdə çox kədərli gözlər çiçəklənir.

Mən sənə iri ulduzlardan söylədim,
Sənsə amma baxdın yerə.

Gecələrdir başımdan göyərən,
Hara getməliyəm, bilmirəm.

Dalıram röyana səssizcə,
Ağ ipək örtür artıq önünü gözlərimin.

Nədən qoydun dörd yanımı
Torpaqsız, söylə bir?

## AYRILMA

Sevda sözləri söyləmək
İstərdim sənə hər zaman,

İndi arayırsan rahatsız
İtmiş möcüzələri.

Amma çalarsa oyuncaq saatlarım
Başlarıq biz də toy etməyə.

Ah, sənin o gözəl gözlərin
Mənim sevimli çiçəklərim.

Və ürəyin cənnətimdir...
Qoy baxım ona mən.

Parıl-parıl nanələrdənsən
Yumşaq xəyallarda.

Sevda sözləri hər zaman
Sənə söyləmək istərdim,

Nədən etmədim?

MÖNCH

Toxunar əlim hər nəyə sən deyə.
Arayırmısan sən də məni?

Alnımda parlayır
Solğun ulduz yenə də,

Və görürəm səni hələ də dünyada,
Yaşamaqda gülüşün.

Alovlanır könlümüz
Göylər ağlığında yuxuda.

Öpmək istərik ah, bir-birimizi,
Amma öldürməyə bənzər bu.

Durmuşam nar ağacı altında, büsbütün
Rəngli, bir şəkil kitabında.

Baxarsan mənə zaman-zaman -
Başlar bahar quşları ötməyə.

## MÖNCH ÜÇÜN

Tumurcuq oldu ayaq barmaqlarım.
- Bax, gəlirəm yanına böyləcə.

Durarsan dərəyə enən yerdə
Parıl-parıl bir çiçəksən, iritumlu;

Mavi boyayar yanaqlarını
Sənin mutluluğunla göy üzü.

Açar özünü varlığım hər zaman-
- Mən bir mehrabam işıqlı,

Amma sən gəlməsən tapınmaq üçün,
Və sabah sonsuz və qaranlıq bir gecədir.

Sovruldu artıq həsrətim
Fırtınasında gözlərimin,

Soldu qanımda büsbütün
Mənim mərcanlarım.

Sönür ömrüm batan ayın
Üzündə, qaranlıqda.

## BİR MAHNI

Sudur duran gözlərimin ardında,
Ağlayım gərək büsbütün.

Qanadlanıb uçmaq istərəm,
Köçəri quşlarla uzaqlara;

Nəfəs-nəfəsə küləklərlə
Əngin havada.

Ah, çox üzgünəm...
Aydakı üz bilir bunu.

Bundandır bunca məxmər dualar var
Və yaxınlaşan səhər dörd yanımda.

Qırılarkən qanadlarım
Daş ürəyinin üstündə,

Töküldülər yaslı qızılgüllər kimi
Mavi kolluqlardan qaratoyuqlar.

Ötmək istəyir yenə də
Bütün susmuş mahnılarım,

Və uçmaq istəyirəm uzaqlara
Köçəri quşlarla.

## GİZLİCƏ GECƏDƏ

Bütün ulduzlar altında
Sən oldun seçdiyim.

Oyağam- dinləyən bir çiçəyəm,
Uğultulu yarpaqlar arasında.

Bal yaratmaq istəyir dodaqlarımız,
Çiçəklənmiş işıltılı gecələrimiz.

Yandırar könlümün göyləri odunu
Mutlu parıltısında gövdənin-

Sənin qızılından asılmış mənim röyalarım,
Bütün ulduzlar altında sən oldun seçdiyim.

## ANA

Ölüm mahnısı oxuyur ağ bir ulduz
İyul gecəsində.
Ölüm zənginin səsidir sanki iyul gecəsində.
Və buludların əli dam üstündə,
Kölgənin islaq əli, toxuna-toxuna
Arayır anamı.

Duyuram çılpaq ömrümü,
Uzaqlaşır anamın ölkəsindən,
Böylə çılpaq olmadı heç yaşamım,
Böylə buraxılmış zamana,
Sanki solmuşam
Və durmuşam ardında gündüzün sonunun,
Uzaq gecələr arasında təkbaşına.

ANA

Sən diri olsaydın, ah ana!
Oynayardım sənin qucağında.

Qorxuram və ağrıyır ürəyim
Bunca acılardan.
Səpələnmiş qan yarpaqları hər yana.

Hara gedə bilər uşağım?
Şən bir cığır aça bilmədim ki,
Alt-üst oldu bütün torpaq.

Sevimli, sevimli ana!

# MƏNİM MAHNIM

Tökülür yuxulu yarpaqları gecənin,
Ah ey ən qaranlıq, ey səssiz orman!

Gəlir göylərlə işıqlar da,
Necə oyana bilərəm?
Hər yana getmiş olsam da,
Qaranlıq bir ormandır xışıldayan;

Mən ki çalıb oxuyan və şənürəkliyəm, ey torpaq!
Və pıçıldayır ormanların ürəyim
Yosunyaşlı sularının mahnısını.

ÖMRÜMÜN MAHNISI

Bax mənim talanmış üzümə...
Daha da çökmüş ulduzları.
Bax mənim talanmış üzümə.

Qaranlıq sulara qovuşmaqda
Bütün çiçəkli yollarım:
Qardaşlar ki, ölümcül dalaşdılar.

Qocaldı artıq ulduzları...
Bax mənim talanmış üzümə.

# HABİL

Tanrı sevməz gözlərini Qabilin,
Altun bir bağçadır üzü Habilin,
Qoşa bülbüldür gözləri Habilin.

Səslənərkən telləri ruhunun
Oxuyar Habil hər zaman ucadan,
Amma şəhərin bütün məzarları
Gövdəsindədir Qabilin.

Və o öldürəcək öz qardaşını-
Habil, Habil, boyayır qanın göyləri dərindən!

Qabil hardadır, şığımaq istərəm üstünə:
Sənmi o gözəl quşu öldürdün
Üzündə qardaşının?!!

AXŞAM MAHNISI

Saçılar yumşacıq yağış damlaları
Azyaşlı qızılgül kollarına,
Və artar zənginliyi dünyanın.

Yalnız mənəm ah
Bu bərəkətli çağda susayan
Və ağlayan.

Oxuyur mələklər göylərdən:
“Bu gün tanrının ad günüdür,*
Var xəbəri hər nədən...”

Anlaya bilmirəm ki bunu,
Nədən onun tavanı altında bu qədər
Kədərlə oyanaram hər səhər!

Ad günü:
Təqvimdə qutsal adamların adları olan günlər.

MİLAD BAYRAMI

Çıxaraq yumşaqca o sevimli ulduzumdan
Gələrsən bir kərə axşamüstü yanıma,
Ağzında özlədiyim o sevda sözləri
Və süslənmiş budaqlar göz tikər yoluna.

Bilirəm, yenə işıqlar saracaq canımı,
Çünki sən yandıracaqsan işıqlarımı.

“Nə zaman?”-Soraram səni görən gündən-“Nə
zaman?”
Bir mələk kəsib düzəltdim altun saçlarından
Və bir röya, ki dağıldı durmadan.
Sevirəm səni ah, səvirəm səni,
Sevirəm səni!

Eşidirmisən məni, sevirəm səni...
Və gəzər sevdamız quyruqlu ulduzlar zamanından,
Hələ tanımadan mən səni, sən məni.

## MƏNİM ANAM

Yanır şam masamın üstündə
Anam deyə bütün gecəni-
Anam deyə...

Yanır ürəyim çiynimin altında
Bütün gecəni
Anam deyə...

## UŞAĞIM ÜÇÜN

Hər zaman öləcəksən uşağım!
Hər il sona vardığında,

Yarpaqlar dağılarkən
Və incələrkən budaqlar.

Çox acı oldu ölümə
Qızılgüllərlə qovuşduğun,

O solan çırpıntıları birər-birər
Yaşamış oldun sən.

Bundandır ağlamağım hər zaman...
Ürəyimin gecəsində.

Hələ də köks ötürür mürgülü mahnılarım,
Səni ölüm yuxusuna hıçqıranlar,

Və  baxmaq istəməz artıq gözlərim
Bu dünyaya;

Ağrıdar onu yaşılı yarpaqların.
- Amma məndədir o ölümsüz olan.

Bir şəkildir sənə sevgim ki tanrının,
Şəklidir sanıram.

Ağlar gördüm mələkləri də,
Qarlı yağışlarda və ruzgarda.

Uçurdular...
Göysəl bir havada.

Ay çiçəkləndimi büsbütün
Ömrünə bənzər uşağım!

Görmək istəmirəm, qayğısız
İşıq saçaraq yox olan işıldaquşu.

Heç inanmazdım, uşağım!
Ölümün sən deyə gəlməsini,

Sevirəm evimin divarlarını,
Çəkərəm üzünün gəncilik rəsmini.

Bu ayın həyata
Saçılan və düşən ulduzları,
Damlayar ağır-ağır ürəyimə.

## GƏLİR AXŞAM

Gəlir axşam və mən dalıram ulduzlara,
Unutmayım deyə yurdumun yolunu.
Yasa büründü üzü zavallı ölkəmin də.

Bağlanmış sevgiylə bir-birinə,
Birləşmiş bir çəyirdəkdə könlümüz:
Ağ rəngli içidir bir badamın.

...Bilirəm, tutmusan hər zamankı kimi əlimi
Sonsuz uzaqların tilsimində...
Çağladı ruhum ah, ağzından eşidərkən.

## TORANLAŞIR HAVA

Toranlaşır hava- gündüz ölür get-gedə...
Və onun, bir yarpağın giləmeyvəsinin
Üzərindəki soyuq kölgəsi sarır məni.

Bir cənnət qurdum özümüzçün, sənin olsun istədim
-Qırıldı ürəyinin gecəsinin qayalıqlarında.

Ötür quşlar və titrəyir ormanın kənarında
Axar suda mənim şəklim.
Sənin olsun istərəm.

Toranlaşır hava, gündüz ölür get-gedə...

# AXŞAM

Birdən oxumaq istədi ürəyim-
Bilmədim nədən?!
-Və ağladım acı-acı axşamkən.

Bir ağrı qopdu hər nədən
-Gəldi çökdü üstümə
Dolaşaraq dörd yanımı.

VƏ

Xor baxdın könlümə-
Uçaydı keşkə mutluluqla
Dar otaqdan göy üzünə!

Ay çıxarkən gəzməyə
Ta gec vaxta qədər dinləyərəm
Çırpıntısını.

Gümüş teldən incəcik hörülmüşdür
Ağ aracım-*
Artıq bulandı işıltıları.

Arac: Alət

## QUCAĞIMDA

Uyuyar qaranlıq buludlar
Qucağımda-
Bundandır kədərim, sevgilim!

Səsləyim gərək adını
Cənnət quşunun səsiylə, dodaqlarım
Boyanmış olduğunda.

Yatır artıq ağaclar bağçada-
Və önündə pəncərəmin
O yorulmaq bilməyən də-

Uğuldayır çalağanın qanadları
Gətirir məni havada
Sənin evinin üstünə.

Sarılır qollarım belinə-
Yansıyım deyə gövdənin
Duruluğunda sənin.

Söndürmə könlümü-
Taparsan hər zaman-
Sən o yolu.

SEVİMLİM ÜÇÜN

Keçirəm aşaraq altun çəmənindən gövdənin,
Parlayır sevda cığırında almaz çınqılları,
Və uzanır mənim qoynuma
Rəng-rəng firuzə daşları.

Aradım səni bunca mən-qanayır ayaqlarım-
Söndürdüm susuzluğumu şirinliyilə gülüşlərinin.
Qorxuram ancaq ki, qapansın
Qapısı röyaların.

Göndərirəm sənə mavi bir buluda bükülmüş
səlamımı,
Hələ səhər işığından bir damla dadmadan.
Və dodaqlarımdan indicə dərdiyim çiçəklənmiş
öpüşləri,
Hələ vurğunluqla səhərin içinə axmadan.